# *İmamverdi ÖLMƏZ (Zeynalov) – 75*

## "Ümidlər həsrətin bağrını yarar..."

Səmalar qoynuna misralar yazdım,
Sanırdım dünyada bahardım, yazdım.
Əbədi yurdumu əlimlə qazdım,
Torpaqdan-torpağa enmişəm indi...

***("Gəlmişəm indi" İmamverdi Ölməz)***

Şeir, sənət ocağıdır yurdumuz. Bu sənət aləminin sorağı ilə yola çıxdıqda nə qədər ümman duyğulu insanlarla rastlaşırıq, xatırlayırıq, yad edirik. Onların həyat səsi, təcrübəsi sanki tarixin izi kimi görünür bizə, gah kövrəlir, gah sevinir, gah kükrəyir, gah da ki, həzin nəğməyə dönür...

Dünya səndə gözüm qaldı,
Deyilməyən sözüm qaldı,
Kərəm idim, közüm qaldı,
Yanıb gəlləm bu ocağa.
Yaşım ötüb, yaşa çatmaz,
Düşən kirpik qaşa çatmaz.,
Hansı dövran başa çatmaz?
Anıb gəlləm bu ocağa.
İgid qəddin zaman əyər,
Acı sözlər qəlbə dəyər...
İmkan varmı, ömrə qədər?
Dönüb gəlləm bu ocağa.
Keçə bilsəm hər ocaqdan,
Xilas olaq dərd-bəladan.
Ümidimiz tək Yaradan,
Sanıb gəlləm bu ocağa.
Uca taxtı görən kimdir?
Pillə-pillə hörən kimdir?
Min il ömür sürən kimdir?
Enib gəlləm bu ocağa.
Ölməz deyər, Vətən gözəl!
Gül-çiçəyi bitən gözəl!
İstəyinə yetən gözəl,
Bir gün gəlləm bu ocağa!
Bir gün gəlləm bu ocağa!

Elə bu sənət dünyasından söz açmaqda məqsədim də rayonumuzun ədəbi mühitində özünəməxsus yeri olan İmamverdi müəllim haqqındadır. Bu il ömrünün 75-illik yübileyini qeyd etdiyimiz İmamverdi Ölməz (Zeynalov) tək Neftçala rayonunda deyil, eyni zamanda respublikamızın ədəbi aləmində öz dəsti-xətti, ədəbi nümunələri ilə tanınan şair, yazıcı, publisistdir. Bu günə qədər on yeddi kitabı çap olunan müəllifin "Muğanın ağsaqqalı", "İlk eşqin nağılı", "Kölgəsiz sədalar", "Payız əfsanəsi", "Müsafir eşqi və mələklər", " Məhəbbət lövhələri", "Dünyanın sonu", "Uçan mələklər və səma sevgisi", "Gözlər nigaran", "Səma yağışı", "Bizi bağışla ölüm" və b. kitabları oxucular tərəfindən rəğbətlə



qarşılanmışdır. Oxucu marağını yaradan, onların fərqli zövqlərinin çalarını ustalıqla duyub, ifadə edən müəllif, istər şeirlərində, istərsə də roman və povestlərində həyat, əbədiyyət, ulu sevgi, səxsiyyəti dəyərləndirən ideyalarla çıxış edərək müsafirini yaşadığımız dünyanın sonsuzluğuna qədər apara bilir. Fikir, düşüncə ümmanında sanki bir səyyaha çevirə bilir...

Susubdu burada insan əbədi,
Çəmənlər üstündə axır göz yaşı...
Yaşamaq özü də bəlkə hədərdi,
Yüz tarix yaşadır hər məzar daşı.
Qocalıb torpaq da, qəmə dözməyir,
O dağlar qoynunda bulaqlar qalır.
Bir sona burada yarın gözləyir,
Söyüdlər nə üçün xəyala dalır?
Dünyanın bir sonu, bir də əzəli,
Yetəcək ömrümə gələn qocalıq.
Ey sular sonası, ellər gözəli,
Deyəsən əhdinə yetib qocalıq...

İmamverdi ÖLMƏZ (Zeynalov İmamverdi Ağaməd oğlu) 01 iyul 1945-ci ildə Neftçala rayonunun Dördlər kəndində anadan olmuşdur. Ulu babaları XVIII əsrin əvvəllərində Qərbi Azərbaycandan köcüb bu ərazilərdə yurd salmışdılar. İmamverdi müəllim 1961-ci ildə orta məktəbi, 1963-cü ildə Pedaqoji məktəbi bitirmişdir. Məhz həmin ildən pedaqoji fəaliyyətə başlamışdır. 1965-1970-ci illərdə ADPİ-nun tarix fakultəsində təhsilini bitirmişdir. 1960-cı ildən bu günə kimi respublika mətbuatında bədii yazıları ilə çıxış edir.

Bu da belə tale, belə ömürdü,
Halına ürəkdən açıdım, bulaq.
Kimsə axınının gözünü hördü,
Gərək ayıq olaq, çox sərvaxt olaq.
Gəlin qapatmayaq axan çeşməni,
Qoy bulaq çağlayıb ümmana dönsün!
Bu quruyan bulaq incidir məni,
Qoymayın heç kəsin çırağı sönsün!

1987-ci ildə İmamverdi Ölməzin Azərnəşrdə, xalq şairi Süleyman Rüstəmin ön söz yazdığı "Muğanın ağsaqqalı" povesti çapdan çıxmışdır.Ümumiyyətlə, bu günə qədər İmamverdi Ölməzin 17 əsəri, şeirləri, roman, povestləri, esseləri, novellaları işıq üzü görmüşdür. Yaradıcılığını ilkin mərhələsində İmamverdi müəllimin qələm nümunələrinə, yaradıcılığına xalq şairi Süleyman Rüstəm, xalq şairi Qabil, xalq yazıçısı İsmayıl Şıxlı yüksək qiymət vermişdir.

Gecənin zülmətini
əridib nur eylədin,
Bəlkə də biz yox idik,
bizləri var eylədin.
Kiçik bir işartını
artırıb gur eylədin,
Yüz həyat yaşasaq da,
odur ömrün mənası,
Bəşəri oxşar, qucar
həzin ana laylası.

İmamverdi müəllim həmçinin, 1993-cü il mart ayından Yeni Azərbaycan Partiyasının üzvüdür. 1990-cı ildə Bakı faciəsinin,1990-cı il 25 yanvar Neftçala qırğınının ən fəal iştirakçısı olub. Müstəqillik uğrunda mübarizədə iki dəfə həbs olunmuş, dəhşətli əzablara məruz qalmışdır. 20 Yanvar Əlili, Pespublika Prezidentinin təqaüdçüsüdür, AYB-in üzvü, habelə, Respublika "20 Yanvar" Cəmiyyətinin üzvüdür. Hal-hazırda İmamverdi ÖLMƏZ ədəbi-bədii, ictimai-siyasi fəaliyyətini davam etdirməklə, rayon qəzetində, respublika mətbuatında bədii yazıları ilə çıxış edir. Yeni-yeni əsərlər yazıb yaradır.

Ana beşiyə toxundu,
Qəmli nəğmələr oxundu,
Körpə uzaq, həm yaxındı.
Torpaq üstə qalan beşik,
Çiçək kimi solan beşik!
Sənə güllə necə dəydi?
Görüşə yarın gələydi,
Sərhəd yolun son bəleydi,
Döyüşlərdə vuruşdun,
Bil ki, işığa qovuşdun.

2020-ci ilin birinci rübündə İmamverdi müəllimin yeni "Səma yağışı" adlı kitabı işıq üzü görmüşdür ki, bu da poeziyasevərlərə dəyərli töhfədir. Bu gün də qələmi ilə mənəvi mühitimizin kamilliyinə xidmət edən hörmətli yazarımız hal-hazırda sayca 18 –ci kitabı, "İntizarın sonu"povesti üzərində işləyir. Əsər Qarabağ uğrunda döyüşlərdə iştirak edən şəhid oğullar və qazilərimizin həyatından bəhs edəcəkdir.

İmamverdi müəllim bu gün də yazır, yaradır. Sizlərə dəyərli şairimizin cəmiyyətimizin bəlası, bütün dünyanı təcrid rejimində saxlayan "koronavirus" haqqında yazdığı şeri də təqdim etmək istəyirəm, əziz oxucular.

Bəlkə insanların ömrü tükənib,
Bir məhbus libası geyinib cahan.
İlahi mələklər yerəmi enib?
Dərdə əlac tapsın təbib-loğman!
Demə, günahların adı dəyişib,
Aqillər, müdriklər indi hardadır?
Səmanın altında kabus görüşüb-
Mənzillər bağlı, gözlər yoldadır...
İnsan da insana toxuna bilməz,
Saraylar, villalar bağlı qalıbdı.
"Korona" bəladı, heç saya gəlməz,
Çiçəkli bağçalar qəmə dolubdu.
Həyat vahiməli, ömür nigaran,
Kimsə yer üzündə virus axtarır.
Bülbülün avazı necə pərişan,
Təbiblər dərdlərə dərman axtarır.
Tapılar bir əlac, başlayar zəfər,
Zaman sınağından üzüağ çıxaq.
Birləşsin ordutək bu ali bəşər-
Bəxtiyar günlərə bir də qayıdaq.

Çox hörmətli şair, publisist, yazıçı, dəyərli ziyalı, gözəl qəlb sahibi İmamverdi müəllimi 75 –illik yubileyi ilində ürəkdən təbrik edir, dəyərbilən oxucularımız adından can sağlığı, xoş günlərlə nizamlanan ömür yolu, yeni-yeni yaradıcılıq uğurları diləyirik.

Həsənqızı, Bədirə

***AYB-nin üzvü, şair -publisist Neftçala***